

“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.
Heydər Əliyev


Heydər Əliyev - xalq birliyi əbədidir!

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 20 (415) | 11 noyabr 2014-cü il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı


# Prezident İlham Əliyev Macarıstanda işgüzar səfərdə olub



Budapeştin Ferents List Beynəlxalq Hava Limanında dövlət başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Macarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.




## İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban Macarıstan-Azərbaycan biznes forumunda iştirak ediblər

Budapeştdə Azərbaycan-Macarıstan biznes forumu keçirilib.

Prezident İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban biznes forumda iştirak etmiş və geniş nitq söyləmişlər.




## İlham Əliyevin və Macarıstanın Baş naziri Viktor Orbanın geniş tərkibdə görüşü olub



Macarıstanın Baş naziri Azərbaycan Prezidentini parlament binasının önündə qarşıladı.

Sonra rəsmi foto çəkdirildi.

Macarıstan hökumətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Baş nazir Viktor Orbana təqdim olundu.

Geniş tərkibdə görüşdə çıxış edən Macarıstanın Baş naziri Viktor Orban Prezident İlham Əliyevin səfərinin əhəmiyyətini yüksək qiymətləndirdi, ölkənin parlamentində və ümumiyyətlə siyasi həyatında Azərbaycana böyük marağın olduğunu vurğuladı.

## *Ağstafa rayonu İcra hakimiyyəti başçısının*
## SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinə və "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununda göstərilənləri nəzərə alaraq

QƏRARA ALIRAM.

1. Ağstafa rayonunda bələdiyyə seçkilərində kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması, çap, audiovizual və digər seçkiqabağı təşviqat materiallarının yayılması üçün hər bir namizədə, siyasi partiyaya, siyasi partiyalar blokuna öz kampaniyasını aparmaq və bərabər imkanlar yaratmaq üçün yerlərin ayrılması barədə siyahı təsdiq olunsun. (siyahı əlavə olunur.)

2. Ağstafa rayonunda bələdiyyə seçkilərində kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması, çap, audiovizual və digər seçkiqabağı təşviqat materiallarının yayılması üçün ayrılmış yerlərdə təmir, bərpa və abadlıq işləri aparılması RİH başçısının inzibati ərazi dairəsi üzrə nümayəndələrinə və bələdiyyələrə tövsiyə olunsun.

3. Ağstafa rayonunda bələdiyyə seçkilərində kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması üçün yerlərin ayrılması haqqında siyahı 106 saylı Tovuz - Qazax - Ağstafa və 108 saylı Ağstafa Dairə Seçki Komissiyalarına verilsin.

4. Sərəncam "Ağstafa" qəzetində dərc edilsin.

5. Sərəncamın icrasına nəzarət Ağstafa rayonu İcra hakimiyyəti başçısının birinci müavini Ramiz Tatarova həvalə edilsin.

***Məhərrəm Quliyev***

## Ağstafa rayonunda bələdiyyə seçkilərində kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması üçün ayrılmış yerlərin
## SİYAHISI

| Açıq yerlər | | | Qapalı | | | Qeyd |
|---|---|---|---|---|---|---|
| S/N | Ünvanı | Tutumu (nefer) | S/N | Ünvanı | Tutumu (nefer) | |
| 1. | Ağstafa şəhəri, Uşaq Gənclər və İdman məktəbinin stadionu | 2000 1000 | 1. | Ağstafa Elektrik Şəbəkəsinin inzibati binasının akt zalı | 200 | |
| 2. | Dağ Kəsəmən kənd mədəniyyət evinin qarşısındakı meydan | 700 | 2. | Dağ Kəsəmən kənd mədəniyyət evi | 200 | |
| 3. | Vurğun qəsəbə mədəniyyət evinin qarşısındakı meydan | 280 | 3. | Vurğun qəsəbə mədəniyyət evi | 200 | |
| 4. | Həsənsu kəndinin mərkəzindəki meydan | 300 | 4. | Həsənsu kənd mədəniyyət evi | 143 | |
| 5. | Göycəli kənd mədəniyyət evinin qarşısındakı istirahət parkı | 350 | 5. | Göycəli kənd mədəniyyət evi | 150 | |
| 6. | Tatlı kənd klubunun qarşısındakı meydan | 300 | 6. | Tatlı kənd klubu | 100 | |
| 7. | Köhnəqışlaq kənd klubunun qarşısındakı meydan | 100 | 7. | Köhnəqışlaq kənd klubu | 55 | |
| 8. | Eynallı kənd mədəniyyət evinin qarşısındakı meydan | 350 | 8. | Eynallı kənd mədəniyyət evi | 200 | |
| 9. | Köçəsgər kənd mədəniyyət evinin qarşısındakı meydan | 500 | 9. | Köçəsgər kənd mədəniyyət evi | 200 | |
| 10. | Qırılı kənd mədəniyyət evinin qarşısındakı meydan | 400 | 10. | Qırılı kənd mədəniyyət evi | 200 | |
| 11. | Aşağı Göycəli kəndinin mərkəzindəki meydan | 250 | 11. | Aşağı Göycəli kənd tam orta məktəbin akt zalı | 130 | |
| 12. | Xətai kəndinin mərkəzindəki park | 500 | 12. | Qaçaq Kərəm kənd tam orta məktəbin akt zalı | 120 | |
| 13. | Aşağı Kəsəmən kəndinin mərkəzindəki meydan | 360 | 13. | Aşağı Kəsəmən kənd klubu | 120 | |
| 14. | Zəlimxan kənd icma evinin qarşısındakı meydan | 230 | 14. | Zəlimxan kənd klubu | 100 | |
| 15. | Poylu kənd mədəniyyət evinin qarşısındakı meydan | 400 | 15. | Poylu kənd mədəniyyət evi | 200 | |
| 16. | Poylu qəsəbəsinin mərkəzindəki meydan | 250 | 16. | Poylu qəsəbə klubu | 100 | |
| 17. | Qıraq Kəsəmən kəndinin mərkəzindəki meydan | 260 | 17. | Qıraq Kəsəmən kənd klubu | 100 | |
| 18. | Qarahəsənli kəndinin mərkəzində meydan | 240 | 18. | Qarahəsənli kənd klubu | 80 | |
| 19. | Xılxına kənd klubunun qarşısındakı meydan | 240 | 19. | Xılxına kənd klubu | 75 | |
| 20. | Düzqışlaq kənd mədəniyyət evinin qarşısındakı meydan | 230 | 20. | Düzqışlaq kənd mədəniyyət evi | 120 | |
| 21. | Pirili kəndinin mərkəzində meydan. | 220 | 21. | Pirili kənd klubu | 100 | |
| 22. | Kolxəlfəli kənd köhnə məktəbin həyətindəki meydan | 250 | 22. | Kolxəlfəli kənd tam orta məktəbin akt zalı | 110 | |
| 23. | Saloğlu qəsəbəsinin mərkəzindəki meydan | 250 | 23. | Saloğlu qəsəbə klubu | 80 | |
| 24. | Köçvəlili kəndinin mərkəzindəki meydan | 220 | 24. | Köçvəlili kənd klubu | 80 | |
| 25. | Qarayazı qəsəbəsinin mərkəzindəki meydan | 190 | 25. | Qarayazı qəsəbə klubu | 120 | |
| 26. | Muğanlı kəndinin mərkəzində meydan | 260 | 26. | Muğanlı kənd klubu | 150 | |
| 27. | Sadıqlı kəndinin mərkəzindəki meydan | 300 | 27. | Sadıqlı kənd klubu | 120 | |
| 28. | Böyük Kəsik kənd mədəniyyət evinin qarşısındakı meydan | 250 | 28. | Böyük Kəsik kənd mədəniyyət evi | 180 | |
| 29. | Ağgöl kəndinin mərkəzindəki meydan | 120 | 29. | Ağgöl kənd klubu | 50 | |

***Şaiq Qurbanov,***
***Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri***

# Yeni məktəb, yeni ruh, yeni vəzifələr

***Müstəqil Azərbaycanın hər tərəfində son illərdə aparılan yenidənqurna, tikinti abadlıq işləri, yüksək sosial-iqtisadi və mədəni inkişaf hər kəsi hədsiz sevindirir, ürəkləri sonsuz fəxarət hissi ilə döyündürür. Bu misilsiz inkişaf və yeniləşmə rayonumuzda da silinməz izlər qoyur. Bu xoşbəxt günlər bizim Kolxəlfəli kəndinə də gəlib çatmışdır. İllər boyu kələ-kötür, daşkəsəkli yollarımıza şüşə kimi asfalt döşənmişdir. Otuz ilə yaxın müddətdə təbii qaza həsrət qalan evlərimizdə mavi alov şölələnmişdir.***



Son bir ildə baş verən bu yeniliklər kəndimizdə hamının sevincinə səbəb olmuşdur. Ən böyük sevincimiz isə bu il yeni dərs ilində müəllimlərin və şagirdlərin istifadəsinə verilmiş yeni iki mərtəbəli məktəb binası oldu. "Yeniləşən Azərbaycana yeni məktəblə" layihəsinə və respublikada xalq təhsilinə göstərilən sonsuz qayğıya uyğun olaraq, möhtərəm prezidentimiz cənab İlham Əliyevin tapşırığı ilə son illərdə rayonumuzda tikilən yeni məktəb binalarından biri də bizim kənddə tikilmişdir. Təkcə bizim müəllim və şagirdlərimiz deyil, bütün kənd əhli, xüsusilə valideynlərimiz bu məktəb binasına baxdıqca hörmətli prezidentimizə hədsiz minnətdarlıqlarını bildirir, ulu Tanrıdan ona möhkəm can sağlığı, ölkənin və xalqın rifahı naminə fəaliyyətində yeni uğurlar arzulayırlar.

Yeni məktəbimiz haqqında söhbət açmaq mənim üçün çox xoşdur. Yeni binada həm müəllimlər, həm də şagirdlər üçün hər cür şərait yaradılmışdır. Təzə məktəbimizdəki 11 sinif otağında 156 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 34 nəfər müxtəlif ixtisaslı müəllim məşğul olur. Təhsil islahatının tələblərinə uyğun olaraq məktəbimiz hər cür əyani və texniki vəsaitlərlə təmin olunmuşdur. Bir sözlə, bizim üçün elə bir şərait yaradılıb ki, belə məktəbdə var qüvvə ilə işləməyən, müstəqil vətənimizə layiqli gənclər tərbiyə etməyən hər kəsdə ən azı vicdan yoxdur. Yeni məktəb binasında dərs keçsək də, hələ köhnə məktəbimiz də durur. Hər səhər məktəbə gələndə bu yeniliklə, köhnəliyi görüb özlüyümüzdə müqayisə edir, bugünkü xoşbəxt həyatımıza, öz vətəndaşı üçün firavanlıq yaratmağa çalışan qüdrətli dövlətimizə, humanist və qayğıkeş prezidentimizə ürəkdən təşəkkür edirik.

Bir neçə gün əvvəl rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli təzə məktəbimizə gəlmişdi. O, məktəb kollektivinə gözaydınlığı verəndən sonra məktəbimizə kitab hədiyyələri təqdim etdi. Sonra müəllimlərimizlə görüş keçirərək tövsiyələrini bildirdi. Onun bir sözü hamımıza yeni ruh verməklə, həm də yeni vəzifələrimizi xatırlatdı. O, bildirdi ki, hörmətli prezidentimiz İlham Əliyev həyatımızın hər sahəsində böyük uğurlara nail olmaqla bərabər, xalq təhsilinin yüksəlişinə, təhsil işçilərinin sosial şəraitinin yaxşılaşmasına, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsinə lazımi qədər diqqət və qayğı göstərir. Bu sahədə görülən tədbirlər, görülən işlər göz qabağındadır. Təhsil sahəsində həyata keçirilən misilsiz yeniliklərin əvəzində bizdən yalnız bir şey tələb olunur-daha yaxşı işləmək və bu gözəl şəraiti bizə hədiyyə edən hörmətli prezidentimzə böyük ehtiram və hörmətimizi, ən gözəl arzularımızı çatdırmaq.

Biz müstəqil dövlətimzin təhsil işçiləri qarşısında qoyduğu mühüm vəzifələri, bu sahədə həyata keçirilən mütərəqqi yenilikləri yüksək səviyyədə yerinə yetirmək üçün bütün bacarığımızı sərf edəcəyik.

***Arifə İbrahimova,***
***Kolxəlfəli kənd tam orta məktəbinin direktoru***



# Yeni təkliflər irəli sürüldü

***Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin Göycəli kəndində ictimaiyyətlə keçirdiyi görüş həmişə olduğu kimi, bu dəfə də səmərəli və faydalı oldu. Kənd sakinləri yeni inşa olunmuş məktəbin akt zalında keçirilən görüşdə çıxış edərək kənddə mövcud olan bəzi problemləri söyləməklə yanaşı həmin problemlərin aradan qaldırılması üçün öz təkliflərini bildirdilər.***

***Rayon icra hakimiyyətinin başçısı M. Quliyev görüşdə çıxış edərək son illər ölkəmizin həyatında baş verən yeni qlobal dəyişikliklərdən danışdı və əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması üçün gələcəkdə görüləcək işlər barədə ətraflı məlumat verdi.***



M. Quliyev qeyd etdi ki, bu gün Azərbaycan dövləti nəinki Qafqazda, eləcə də dünyanın inkişaf etmiş bütün dövlətləri arasında xüsusi yeri olan ölkələrdən biridir. Ölkəmizdə aparılan böyük quruculuq işlərini hiss edən erməni separatçıları, xüsusilə xaricdə yaşayan erməni lobbisi ölkəmizi dünya dövlətləri arasında nüfuzdan salmaq üçün hər cür böhtan xarakterli məlumatlar yayır, öz işğalçı siyasətlərinə bəraət qazandırmağa çalışırlar.



Lakin cənab İlham Əliyevin apardığı məqsədyönlü daxili və xarici siyasət Ermənistanın işğalçı bir dövlət olduğunu sübut etmişdir. Ölkə rəhbərliyinin apardığı düzgün siyasət dünya dövlətlərinin əksəriyyətinin Azərbaycana qarşı münasibətini müsbət mənada kökündən dəyişdirmişdi.

Bu gün Azərbaycan sürətli inkişaf yolundadır. Ölkəmizin elə bir guşəsi yoxdur ki, orada yenidənqurma işləri aparılmasın. Doğma Ağstafamızın timsalında isə bunu daha aydın görmək olur. Təkcə son üç ildə rayonda aparılan abadlıq və yenidənqurma işləri bunu aydın əks etdirir.

Görüşdə iştirak edən kənd sakinləri çıxış edərək ölkə başçısı cənab İlham Əliyevin apardığı daxili və xarici siyasəti ürəkdən bəyəndiklərini bildirdilər. Kənd icra nümayəndəsi Şəmsi Abbasov çıxış edərək qeyd etdi ki, bu gün Göycəli kəndində 2648 nəfər əhali yaşayır. Kənddəki mövcud uşaq bağçasının vəziyyəti müasir tələblərə cavab vermir. O, kənddə yeni uşaq bağçasının tikilməsini təklif etdi.

Kənd sakinləri Yasin Əhmədov, Əsəd Əliyev öz çıxışlarında bildirdilər ki, yay mövsümündə təsərrüfatlarının suvarılmasında ciddi problemlərlə üzləşirlər. Kəndin aşağı hissəsində yaşayan əhali içməli sudan korluq çəkir. Odur ki, çıxış edənlərin hər ikisi qeyd olunan problemlərin həll edilməsində onlara köməklik göstərilməsini xahiş etdilər.

Rayon icra Hakimiyyətinin başçısı M. Quliyev görüşdə irəli sürülən təkliflərə, edilən xahişlərə öz münasibətini bildirdi və bununla əlaqədar müvafiq idarə, müəssisə və təşkilat rəhbərlərinə tapşırıqlar verdi.

***İ. Əliyev***

## 23 dekabr-Bələdiyyə seçkiləri günüdür

# Bələdiyyə seçkilərinə ciddi hazırlaşırıq

***Mərkəzi Seçki Komissiyasının 21 oktyabr 2014-cü il tarixli 4-26 saylı qərarına əsasən bu il keçiriləcək Bələdiyyə seçkilərinin vaxtı dekabrın 23-nə təyin edilmişdir. Həmin qərara uyğun olaraq rayonumuzda da Bələdiyyə seçkilərinə start verilmişdir. Seçkilərə hazırlıqla əlaqədar geniş məlumat vermək üçün 108 saylı Ağstafa dairə seçki komissiyasının sədri Tamerlan Eyyubova müraciət etdik. Verdiyi müsahibədə komissiya sədri dedi:***

- Bəli, oktyabrın 21-dən respublikamızda keçiriləcək Bələdiyyə seçkilərinin vaxtı elan edildi. Həmin gün də seçkilərə start verildi və bütün seçki dairələrində gərgin iş başladı. O gündən də aramsız olaraq siyasi partiyaların, siyasi bloklar və təşəbbüs qruplarının nümayəndələri dairə seçki komissiyasına müraciət etməyə başlamışlar. Onlar öz namizədlərini irəli sürür, bu işdə seçki qanunlarının müddəalarından səmərəli istifadə edirlər. Namizədliyin irəli sürülməsi həm də fərdi qaydada aparılır. Yeni bütün qaydalara uyğun şəkildə sənəd təqdim edən fərdi şəxslər də bələdiyyələrə üzv seçilmək üçün öz namizədliyini verə bilərlər. Namizədliyi irəli sürülən hər bir vətəndaş lazımi qaydada imza vərəqələri, əmək haqları və əmlakları barədə arayışlar təqdim etməlidirlər.

Onu qeyd edim ki, seçkilərə start veriləndən indiyədək 240 nəfərdən çox vətəndaş bələdiyyə seçkilərinə namizədliyini irəli sürmüşdür. Bu iş davam edir və bizə müraciət edənlərin sayı get-gedə artır. Seçkilərə bir ay qalmış namizədlərin göstərilməsi dayandırılacaq və bir həftə ərzində dairə seçki komissiyasına müraciət edən namizədlərin sənədləri müfəssəl yoxlanılacaqdır. Namizədlərin qeydə alınması başa çatdıqdan sonra isə təbliğat-təşviqat işlərinə başlanacaqdır.

Məlumat üçün bildirim ki, bu ilki Bələdiyyə seçkilərində şəhər və kəndlərimizdən 4520 nəfərə qədər seçici iştirak edəcəkdir. Səsvermə üçün rayon ərazisində 38 məntəqə təşkil edilmişdir. Bu məntəqələrdə 26 şəhər və kənd bələdiyyəsinə seçki keçiriləcəkdir. Seçkilərin şəffaf, ədalətli, seçki qanunvericiliyinə tam uyğun şəkildə keçirilməsi məqsədilə hər cür hazırlıq işlərini vaxtında görməyə çalışırıq. Bütün seçki məntəqələri yeni səsvermə kabinələri, stol və stullarla, digər avadanlıqlarla və təlimat kitabçaları ilə təmin olunmuşdur. Bundan əlavə məntəqə seçki komissiyalarının tərkibi bir daha nəzərdən keçirilmiş, seçicilərin siyahıları yenidən dəqiqləşdirilmiş, rast gəlinən nöqsanlar və uyğunsuzluqlar aradan qaldırılmışdır.

Başqa bir məsələyə də toxunmaq istəyirəm ki, seçkilərin tam aşkarlıq şəraitində keçirilməsi məntəqə seçki komissiyalarının üzvlərinin normal fəaliyyətindən çox asılıdır. Ona görə də hər bir komissiya üzvünün maarifləndirilməsinə, seçki qanununun müddəalarını daha dərindən mənimsəməsinə xüsusi fikir verilir. Bu məqsədlə dairəmizdə seminar keçirilmişdir. Seminarda rayonumuzdakı bütün seçki məntəqələrinin sədrləri, katibləri və üzvləri fəal iştirak etmişlər. Seminarda hər kəsin suallarına ətraflı aydınlıq gətirilmiş, görüləcək işlər və yeniliklər izah olunmuşdur.

Əminliklə deyə bilərəm ki, hələ seçki gününə xeyli qalsa da seçki məntəqələrimiz səsverməyə tam hazırdır. Buna baxmayaraq hazırlıq işləri ara vermədən davam etdirilir. Axı, namizədlərin təbliğat-təşviqat işləri hələ öndədir. Bu işdə də demokratik prinsiplərə tam əməl olunmalı, hər bir namizədin öz seçiciləri ilə görüşü keçirilməlidir. Bu sahədə rayon icra hakimiyyəti aparatının köməyini xüsusilə qeyd etmək istəyirəm. Rayon icra hakimiyyəti başçısının sərəncamı ilə hər bir bələdiyyə namizədinin öz seçiciləri ilə görüşməsi və öz platformasını onlara açıqlaması üçün qapalı və açıq yerlər müəyyən edilmişdir.

Bəli, yola saldığımız hər gün bizi Bələdiyyə seçkiləri gününə yaxınlaşdırır. Ümidvaram ki, müstəqil Azərbaycanımızın azad vətəndaşları, o, cümlədən rayonumuzun səsvermə hüququ olan əhalisi dekabrın 23-də seçki məntəqələrinə gələcək, öz vətəndaşlıq borclarını yerinə yetirəcək, bələdiyyələrin ləyaqətli namizədlərinə səs verəcəklər.

***Müsahibəni yazdı:***
***F.Heydərli.***

# Ömrün gənclik illəri

***Böyük dahilərdən biri demişdir ki, insan dünyaya göz açdığı gündən tərbiyə olunmalıdır. Belə olduqda həmin insanın həyatında heç bir çətinlik yaranmır və o, uşaqlıq, gənclik illərini maraqlı və mənalı keçirməklə yanaşı həyatda böyük uğurlar qazanır. Haqqında söhbət açacağımız gənc Ağstafa şəhər sakini İsmayıl Vaqif oğlu Bayramovdur.***

***İsmayıl 1984-cü ildə Ağstafa şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. Anası Fərqanə Bayramova Ağstafa şəhər 2 saylı orta məktəbində müəllim işləyir. Atası Vaqif Bayramov isə uzun illər Ağstafa Qaz İstismar İdarəsində mühəndis işləmiş, hazırda isə təqaüdçüdür.***



İsmayıl Bayramovlar ailəsinin uç övladından biridir. O, 2002-ci ildə şəhər 1 saylı orta məktəbini bitirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına daxil olmuş və həmin institutu Qırmızı diplomla bitirmişdi. Gənc mütəxəssis elə həmin il "Bərəkətli torpaq" Məhdud Məsuliyyətli Cəmiyyətində əmək fəaliyyətinə başlamış, 2009-cu ildə isə Ağstafdakı ən böyük sənaye müəssisələrindən biri olan Akkord Tikiş fabrikində menecer kimi əmək fəaliyyətini davam etdirmişdir.

26 yaşlı gənc İsmayıl Bayramov işlədiyi fabrikdə elə ilk gündən öz bacarığı, qabiliyyəti, davranışı ilə çoxlarından fərqlənmiş və onun bu məziyyətləri fabrikin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilərək İsmayıla böyük etimad göstərilmiş, fabrikə direktor təyin olunmuşdur. 2012-ci ildən hal-hazıradək həmin vəzifədə çalışan İsmayıl bu illər ərzində ona göstərilən etimadı doğrultmuş və fabrikdə əldə olunmuş nailiyyətlərdə dəmək olar ki, onun xeyli əməyi olmuşdur.

Bu gün Ağstafa Toxuculuq fabriki rayonun ən böyük sənaye müəssisələrindən biri hesab edilir. Çünki həmin tikiş fabrikində halhazırda 200-ə yaxın gənc çalışır. İsmayıl Bayramov burada işləyənlərin əksəriyyətindən cavan olmasına baxmayaraq hamı ona rəhbər və yaxın dost kimi hörmətlə yanaşır. Əlbəttə, bütün bunların hamısı heç də təsadüfi deyildir. Çünki İsmayıl hələ Kənd Təsərrüfatı Akademiyasında təhsil alarkən öz tələbə yoldaşları arasında da fərqlənmiş və orada da İsmayıla yüksək etimad göstərilərək gənclər təşkilatının sədri vəzifəsinə irəli çəkilmişdir. O, bu işdə də özünü doğrultmuş və bir çox respublika əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir.

İsmayıl Bayramovun direktor işlədiyi Ağstafa Toxuculuq fabriki respublikanın ən öndə gedən sənaye müəssisələrindən biridir. Burada əsasən qadın və kişi geyimləri istehsal olunur. Bütün bunlardan əlavə fabrikdə ayrı-ayrı tikinti təşkilatlarında, kommunal və tibb müəssisələrində işləyənlər üçün kişi və qadın geyimləri istehsal edilir. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, toxuculuq fabrikində il ərzində 700-800 min manata yaxın dəyərində xüsusi geyimlər hazırlanır.

İsmayıl Bayramov öz həmyaşıdlarından bacarığı və qabiliyyəti ilə fərqləndiyi kimi təmkinliliyi, ağır təbiəti ilə də diqqəti cəlb edir. O, özü haqqında danışmağı heç xoşlamır. Bütün bunları nəzərə alaraq İsmayıl haqqında bəzi məlumatları onun qardaşı Məhəmməddən, yaxın dostları və həmyaşıdları Qalibdən, Rizvandan, Elvindən, Sarıdan və başqalarından öyrəndik. Onların hamısı İsmayıl haqqında ağızdolusu danışdılar. Onlar qeyd etdilər ki, İsmayıl Bayramov allaha inamına görə də hamıdan fərqlənir.

Gənc İsmayılın həyat yolunu nəzərdən keçirdikdə diqqətimizi bir fakt daha çox cəlb etdi. Bu günlər, yeni noyabr ayının 11-də İsmayıl Bayramovun 30 yaşı tamam olur. Fürsətdən istifadə edib İsmayılı yaxın qohumları, dostları və valideynləri adından onu ad günü münasibətilə ürəkdən təbrik edir, ona işlərində daha böyük müvəffəqiyyətlər arzulayırıq.

***İbrahim Əliyev***

# Ağstafa rayonu üzrə subsidiya alanlar

*01 iyun 2014-cü il tarixə Ağstafa rayonunda fiziki və hüquqi şəxslərə hər hektar əkin sahəsinin və çoxillik əkmələrin becərilməsinə görə 40 manat hesabı ilə dövlətbüdcəsinin vəsaiti hesabına veriləcək yardım haqqında*

*M Ə L U M A T*

| Sıra N-si | Kənd ərazi komissiyasının adı | İstehsalçıların sayı | Cəmi becərilən əkin sahəsi (ha) | O, cümlədən bitkilər üzrə | | | | | | Verilənsi yardımın məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Taxıl (qarğıdalısız) | Qarğıdalı | Kartof | Tərəvəz | Üzüm bağı | Digər əkmələr | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **8** | **9** | **10** | **11** | **12** |
| 1 | Köhnəqışlaq | 100 | 171.87 | 120.00 | 4.94 | 4.93 | - | - | 42.00 | 6874.80 |
| 2 | Ağgöl | 39 | 276.06 | 166.85 | - | - | - | - | 109.21 | 11042.40 |
| 3 | Böyük Kəsik | 60 | 145.30 | - | - | - | - | - | 145.30 | 5812.00 |
| 4 | Qarayazı | 77 | 136.17 | 10.00 | 2.00 | - | - | - | 124.17 | 5446.80 |
| 5 | Eynallı | 371 | 825.36 | 580.32 | 24.91 | 44.01 | 26.28 | - | 149.84 | 33014.40 |
| 6 | Düzqışlaq | 138 | 473.16 | 141.50 | 11.90 | - | 2.58 | 6.00 | 311.18 | 18926.40 |
| 7 | Sadıqlı | 419 | 772.84 | 55.00 | 9.83 | - | - | - | 708.01 | 30913.60 |
| 8 | Poylu qəsəbəsi | 275 | 971.90 | 791.90 | 10.00 | 2.00 | 5.00 | - | 163.00 | 38876.00 |
| 9 | Muğanlı | 383 | 676.85 | - | - | - | - | - | 676.85 | 27074.00 |
| 10 | Tatlı | 389 | 643.55 | 573.25 | 8.30 | 10.00 | 7.00 | - | 45.00 | 25742.00 |
| 11 | Xılxına | 212 | 569.00 | 189.00 | 38.00 | 17.00 | 30.00 | - | 295.00 | 22760.00 |
| 12 | Pirili | 170 | 876.10 | 531.40 | 37.00 | 4.00 | 5.00 | 81.50 | 217.20 | 35044.00 |
| 13 | Kolxəlfəli | 159 | 788.00 | 403.00 | 46.00 | 4.00 | 4.00 | - | 331.00 | 31520.00 |
| 14 | Aşağı Kəsəmən | 458 | 778.00 | 528.00 | 32.60 | - | - | 4.49 | 212.91 | 31120.00 |
| 15 | Vurğun qəsəbə | 255 | 471.33 | 133.93 | 14.77 | 4.95 | - | 92.90 | 224.78 | 18853.20 |
| 16 | Köçəsgər | 555 | 798.85 | 679.70 | 2.15 | 13.05 | - | - | 103.95 | 31954.00 |
| 17 | Qırılı | 563 | 1116.05 | 655.30 | 10.30 | 85.95 | - | 2.05 | 362.45 | 44642.00 |
| 18 | Saloğlu | 77 | 512.56 | 396.42 | - | - | - | - | 116.14 | 20502.40 |
| 19 | Xətai | 595 | 302.06 | 158.84 | 20.23 | 15.57 | 14.02 | 0.56 | 92.84 | 12082.40 |
| 20 | Aşağı Göycəli | 271 | 495.93 | 237.64 | 18.00 | 3.00 | 9.99 | 16.84 | 210.46 | 19837.20 |
| 21 | Poylu | 366 | 503.15 | 446.84 | 2.12 | - | 7.23 | 2.41 | 44.55 | 20126.00 |
| 22 | Köçvəlili | 358 | 699.84 | 139.00 | - | - | - | - | 560.84 | 27993.60 |
| 23 | Həsənsu | 309 | 340.93 | 85.72 | 11.33 | 9.18 | 22.67 | 98.34 | 113.69 | 13637.20 |
| 24 | Göycəli | 403 | 531.85 | 292.90 | 16.25 | 32.45 | 20.60 | 1.60 | 168.05 | 21274.00 |
| 25 | Dağkəsəmən | 957 | 1415.38 | 883.39 | 234.23 | 10.97 | 6.03 | 2.25 | 278.51 | 56615.20 |
| 26 | Qıraq Kəsəmən | 421 | 753.00 | 562.00 | 50.00 | 10.00 | 10.00 | - | 121.00 | 30120.00 |
| 27 | Zəlimxan | 153 | 279.75 | 243.00 | 3.50 | 0.80 | 0.60 | 0.85 | 31.00 | 11190.00 |
| 28 | Qarahəsənli | 101 | 277,28 | 65.00 | 90.28 | 35.00 | 10.00 | 10.00 | 67.00 | 11091.20 |
| | **Cəmi:** | **8634** | **16602.12** | **9069.90** | **698.64** | **306.86** | **181.00** | **319.79** | **6025.93** | **664084.80** |

# Qərar icra olunmur, Gülnarə kömək gözləyir

Həyat çox mürəkkəbdir, kimini güldürür, kimini isə ağladır. 15 il bundan əvvəl ailə həyatı qurmuş Gülnarə Rafiq qızı Bağırovaya həyat imtahanının ikincisi qismət olmuşdur. O, Vurğun qəsəbə sakini Məmmədov Şahmar Eyvaz oğlu ilə ailə həyatı quranda bəlkə də özünü dünyanın ən xoşbəxt qadınlarından biri hesab etmiş və bu arzu, bu istəklə dünyaya üç uşaq gətirmişdi.

Lakin sonralar Gülnarənin heç ağlına gəlməyən başına gəlmiş, sevincli günləri göz yaşı ilə əvəz olunmuşdu. 9 il bundan əvvəl Gülnarənin Şahmar Məmmədovla rəsmi nikahları ləğv olunmuş və o, körpə uşaqları Turalı, Qumralı və Qurbanı tək böyütməli olmuşdu.

Ağstafa rayon məhkəməsində Gülnarə ilə Şahmarın məhkəmə işinə baxılarkən Gülnarəyə qaynatası Eyvaz Məmmədovun evində yaşamaq hüququ verilmişdir. O, bir müddət həmin evdə yaşadıqdan sonra ailədə olan münaqişələr daha da kəskinləşmiş və Gülnarə başqa bir adamın adına olan, heç bir şəraiti olmayan mənzilə köçürülmüşdür. Vəziyyəti belə görən Gülnarənin atası Rafiq Bağırov qızını, nəvələrini öz evinə gətirmiş və birgə yaşamışlar.

Bütün bunlar Gülnarənin ailəsində yaranan problemin heç də hamısı olmamışdır. Məhkəmənin qərarı ilə Gülnarənin uşaqlarına aliment təyin olunmuş və o, üç il həmin alimenti aldıqdan sonra uşaqların atası Şahmar Məmmədov yoxa çıxmışdı. Bütün bunlar Gülnarənin həyatında ciddi maliyyə problemi yaratmışdı.

G. Bağırova məhkəmənin qərarı ilə uşaqlarına təyin olunmuş alimenti almaq üçün elə bir təşkilat qalmamışdır ki, oraya müraciət etməsin. Onun şikayət ərizələrinə, müraciətlərinə verilən cavablar isə birmənalı olmuşdu. Şahmar Məmmədovu tapa bilmirik, o, yoxa çıxmışdı.

Yeqin ki, Gülnarə Bağırovanın müraciətlərinə verilən bu cür cavablar nəinki onun ailəsinin, eləcə də bu məsələ ilə yaxından tanış olan hər bir vətəndaşın ürəyincə deyildi. Odur ki, biz gənc ailənin, daha doğrusu Gülnarə Bağırovanın ailəsində yaranmış bu problemin həll edilməsi üçün üzümüzü rayon polis şöbəsinə, rayon məhkəməsinə tutaraq vətəndaş Gülnarə Bağırovanın haqlı şikayətinin həll olunmasında ona köməklik göstərilməsini xahiş edirik. Əminik ki, redaksiyamızın bu müraciəti ilə əlaqədar təşkilatlar tərəfindən nəzərə alınacaq və Gülnarə Bağırovaya köməklik göstəriləcəkdir.

***"Ağstafa" qəzeti***


## Hörmətli oxucular!

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı olan "Ağstafa"** qəzetinə 2015-cü ilin birinci yarım ili üçün abunə yazılışına başlandı. Qəzetə rayon mətbuat yayımında və redaksiyanın özündə abunə yazıla bilərsiniz. Qəzetin yarım illik abunə qiyməti 8 manatdır. Redaksiyanın Kapitalbankın Ağstafa filialındakı hesab nömrəsi AZO4A11B33080019445200229152, VÖEN nömrəsi isə 36000811691-dir. Qəzetimizə abunə yazılanlara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.


# YENİ STATİSTİK MƏCMUƏ

Ağstafa Rayon Statistika İdarəsi 2009-2013-cü illərdə rayonun sosial-iqtisadi inkişafında baş verən prosesləri əks etdirən statistik məcmuə nəşr etdirmişdir.Statistik məcmuə təsdiq olunmuş statistik işlər proqramlarına əsasən statistika idarəsi tərəfindən müəssisələrdən, təşkilatlardan alınan hesabatların, siyahıyaalmaların, seçmə müayinələrin və statistik müşahidələrin keçirilməsi yolu ilə əldə olunmuş məlumatlardan hazırlanılmış icmal məlumatlardan, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi statistik nəşrlərindən istifadə olunması əsasında hazırlanmışdır.

Məcmuədə Azərbaycan Respublikası haqqında umumi məlumatlar, siyasi partiyalar və ictimai təşkilatlar, coğrafiyası, əhalinin sayının dəyişməsi , iqtisadi rayonları, Gəncə-Qazax İqtisadi Rayonu, Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağstafa rayonuna səfərləri, iştirak etdiyi tədbirlər, Ağstafa rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair sərəncamları haqqında ətraflı məlumatlar verilmişdir.

Ağstafa rayonunun sosial-iqtisadi inkişafının əsas sahələri üzrə göstəricilər məcmuədə 18 adda fəsildə, 76 adda bölmələrdə öz əksini tapmışdır. Əhalinin sosial müdafiəsinin, xüsusən əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasının təşkili sahəsində ölkə üzrə əldə olunmuş göstəricilər haqqında da məlumatların verilməsinə çalışılmışdır. Məcmuədə istifadə olunmuş iqtisadi göstəricilərin hazırlanmasının, terminlərin izahı medodologiya adlı hissədə ətraflı şərh olunmuşdur.

Ağstafa rayonu, rayonun inzibati ərazi bölgüsü, demoqrafik inkişafı, əmək ehtiyatları və əhalinin məşğulluğu, əhalinin həyat səviyyəsi, təhsil, mədəniyyət, turizm, hüquqpozmalar, ətraf mühitin mühafizəsi, yanacaq enerji təchizatı, məhsul buraxılışı, kənd təsərrüfatı, sənaye, tikinti, nəqliyyat,informasiya və rabitə xidmətləri, istehlak bazarı haqqında ətraflı məlumatlar məcmuədə öz ifadəsini tapmışdır. Rayonun iqtisadi və mədəni həyatının dəyişməsini əks etdirən şəkillərdən, statistik göstəricilərin dinamikasını ifadə edən cədvəllər və dioqramlardan istifadə edilmişdir.

Statistik məcmuə rayonun icra hakimiyyətinin, idarəetmə orqanlarının işçiləri, iqtisadçılar, statistiklər, investorlar üçün nəzərdə tutulmuşdur.

***Rəhilə Namazova,***
***Ağstafa Rayon Statistika İdarəsi aparıcı məsləhətçisi***

## Etibarsız sayılır

Zəlimxan kənd sakini Həsənov Rəfail İsgəndər oğlunun adına olan 502 №-li "Qeydiyyat vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.

* * *

Kolxəlfəli kənd sakini Bayramov Akif Cavanşir oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-206A №-li şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin

Hüseyn Arif ədəbi məclisinin üzvləri Azərbaycan Yazıçılar Birliyinin üzvü Vaqif Əliyə, bacısı

**Reyvə Bayramovanın**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Ağstafa" rayon qəzetinin əməkdaşları Azərbaycan Yazıçılar Birliyinin üzvü Vaqif Əliyə, bacısı

**Reyvə Bayramovanın**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR:**
**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*
*Şəadətnamə № 308*

*Redaksiya heyəti*
*L.Eyyubova, K.Abbasov, V.Əkbərov, İ.Əliyev, N.Mehdixanlı, F.Vəliyev, İ.Mustafayev, A.Tağızadə*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*